# AZƏRBAYCAN EKOREGİONUNDA BİOMÜXTƏLİFLİYİN QORUNMASINDA ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ROLU

**Elşad Qurbanov**

*Bakı Dövlət Universiteti*
*elshad_g@rambler.ru*

Azərbaycan ekoregionunun ərazisi 86 000 km$^2$ olmasına baxmayaraq, müxtəlif iqlim tipinə, landşafta malikdir. Şimaldan Rusiya Federasiyası, cənubdan İran İslam Respublikası və Türkiyə Cümhuriyyəti, qərbdən Gürcüstan və Ermənistan respublikaları, şərqdən isə Xəzər dənizi ilə sərhədlənib. Asiya və Avropa dövlətlərini birləşdirən İpək yolunda yerləşdiyindən regionda biomüxtəlifliyin qorunması mühüm rol

oynayır. Ancaq respublikamızın sərhədləri tam bilinmədiyindən qonşu respublikaların əhalisi, bizim ərazimizdən yay və qış otlaqları kimi istifadə edir, meşələrimiz də qəddarcasına məhv edilirdi. 1969-cu ildə Heydər Əliyev Azərbaycan KP MK-nın I katibi (Respublikanın rəhbəri) vəzifəsinə seçildikdən sonra, respublikamızda kənd təsərrüfatının müxtəlif sahələri, o cümlədən sənaye müəssisələri intensiv inkişaf etdirilməklə bərabər, Azərbaycanın biomüxtəlifliyinin qorunmasında əməli addımlar atılmışdır.

Ulu Öndər 1969-cu ildən 1982-ci ilə qədər şəhərsalmanı inkişaf etdirdiyi kimi, şəhərin yaşıllaşdırılmasında mühüm addımlar atmışdır ki, o, bu gün də xalqımıza və dövlətimizə xidmət edir.

H.Əliyevin birinci hakimiyyəti dövründə biomüxtəlifliyin qorunması üçün Azərbaycanda 10-dan çox dövlət təbiət qoruğu və bir çox yasaqlıqlar yaradılmışdır.

Biomüxtəlifliyin və ekoloji tarazlığın qorunması üçün dövlət səviyyəsində onlarla qanun və qərarlar qəbul edilmiş, ekoloji bilikləri inkişaf etdirmək üçün ali təhsil ocaqlarında "Təbiətin mühafizəsi" kafedraları yaradılmışdır.

Azərbaycanın paytaxtı Bakı şəhərinin tarixinə diqqət yetirdikdə yaşıllıqları olmayan, çılpaq bir şəhər görürük, burada adambaşına təxminən bir $m^2$ yaşıllıq düşürdü. H.Əliyev I dəfə hakimiyyətə gəldiyi ilk dövrdə Bakı şəhərini dünyanın ən yaşıl şəhərlərindən birinə çevirmək üçün xüsusi proqramlar hazırlamış, bir çox parklar saldırmış və I hakimiyyətinin sonuna yaxın adambaşına düşən yaşıllığın sahəsi 20-30 dəfədən artıq olmuşdur.

Ulu Öndərin II hakimiyyəti dövründə biomüxtəlifliyin qorunması üçün zərurət artdıqca, "Dövlət Təbiət Qoruqları", "Yasaqlıqlar" və "Milli Parklar" yaradılmışdır.

Canlı aləmin, heyvan və bitkilərin qorunmasını təmin etmək üçün bir çox qanunlar hazırlanmış, biomüxtəlifliklərin qorunması üçün dünyada fəaliyyət göstərən bütün konvensiyalara qoşulmuş, BMT-nin iqim dəyişmələrinin biomüxtəlifliyə təsirinə aid çərçivə konvensiyaları ölkəmizdə ratifikasiya olunmuşdur ki, onun nəticəsində "COP29" kimi nüfuzlu bir tədbirin Azərbaycanda keçirilməsi və ev sahibliyi edilməsi dünya dövlətləri tərəfindən yekdilliklə qəbul edilmişdir.

Ulu Öndərin vəsiyyəti ilə onun siyasətini yüksək səviyyədə yerinə yetirən cənab Prezidentimiz İ.Əliyev digər sahələrlə yanaşı, biomüxtəlifliyin qorunması sahələrini sürətlə inkişaf etdirir. Azərbaycan üçün çox böyük əhəmiyyət kəsb edən BMT-nin iqlim dəyişkənliyinin sabitliyinin bərqərar olması yolunda cənab İ.Əliyevin rəhbərliyi ilə "COP29" çərçivə konvensiyası respublikamızda yüksək səviyyədə keçiriləcəkdir.

Uzaqgörən siyasətin nəticəsində Prezidentimiz tərəfindən 2024-cü il "Yaşıl dünya naminə həmrəylik" ili elan edilmişdir.